2018-ci ilin yanvar-noyabr aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 899 milyon 617 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur. Sənaye istehsalının 96,3 faizi malların, 3,7 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 45 milyon 825 min 900 manatlıq, qeyri-dövlət sektorunda 853 milyon 791 min 100 manatlıq məhsul istehsal edilmişdir.

2018-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikanın sənaye müəssisələrində 16555 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz artaraq 380,3 manat olmuşdur.